**18.09.2018**

# MƏLUMAT BÜLLETENİ

## FORUM

| **Tarix** | |
|---|---|
| 20 sentyabr 2018 | Sizi Azərbaycan Respublikasının Hökuməti və Caspian European Club-ın dəstəyi ilə keçiriləcək 7-ci Beynəlxalq “Caspian Energy Forum Baku - 2018”ə dəvət edirik. |
| **Keçirildiyi yer** | |
| Bakı, JW Marriott Absheron Baku Hotel (Sharq Ballroom) | Azərbaycan Sahibkarlar Konfederasiyasının (ASK) üzvləri üçün deleqat qismində Forumda iştirak **50% güzəştlədir:** |
| **Əlaqə üçün** | |
| Forumla bağlı yaranacaq hər hansı bir sualla bağlı Günay Sadıqova ilə əlaqə saxlaya bilərsiniz.<br>Tel: 012 447 02 36 (daxili: 104)<br>Mob: 0994 50 888 80 20<br>pr@caspianenergy.net<br>ASK üzvlərinə endirimlə bağlı Nurlana Həsənovaya müraciət edə bilərsiniz;<br>Tel: 012 465 72 42 (daxili: 112)<br>nhasanova@ask.org.az<br><br>www.caspianenergy.net<br>www.caspianenergy.org<br>www.caspianenergyforum.com<br>www.caspianenergyaward.com | *VİP zona dövlət qurumlarının, nazirliklərin, dövlət komitələrinin, dövlət agentliklərinin, dövlət ximətlərinin rəhbərləri, Azərbaycanda akkreditə olunmuş dövlət və transmilli şirkətlərin, beynəlxalq maliyyə institutlarının, diplomatik və beynəlxalq missiyaların rəhbərləri, həmçinin forumun sponsor və partnyorları üçün nəzərdə tutulub.<br>ASK üzvləri : 300 AZN + 18% VAT<br>Qeyri-üzvlər: 600AZN + 18% VAT<br>Deleqat ödənişinin məbləğinə daxildir (tam paket):<br>- forumun işgüzar hissəsində bütün sessiyalarda iştirak<br>- işgüzar naharda iştirak<br>- kofe-breyklərdə iştirak<br>- tərcümə cihazından ödənişsiz istifadə<br>Tədbirin proqramın buradan yükləyə bilərsiniz.<br>Forumun rəsmi saytına keçid. |

## ELAN

“Luxen Plaza” biznes mərkəzində 31 Dekabr 2018-ci ilə qədər mağaza icarəyə götürən ASK üzvləri **25% endirim** əldə edəcəklər. “Luxen Plaza” haqqında ətraflı məlumatı buradan əldə etmək olar. Biznes mərkəzində həmçinin ofis icarəyə götürmək imkanı var.

**Əlaqələndirici şəxs:**
Nurlana Həsənova
Tel: (012) 465 72 42 (daxili: 112)
nhasanova@ask.org.az

## SƏRGİLƏR

| | |
|---|---|
| **Hədiyyələr və promo materiallar sərgisi**<br>**Tarix**<br>20-22 sentyabr 2018<br>**Keçirildiyi yer**<br>"Boulevard Hotel Baku"<br>**Əlaqə üçün**<br>Nurlana Həsənova<br>Tel: (012) 465 72 42 (daxili: 112)<br><br>nhasanova@ask.org.az | Azərbaycanda ilk dəfə olaraq hədiyyələr və promo məhsulları "Gift&Promo Fair 2018" sərgisi keçiriləcəkdir. Üç gün ərzində sərgi, yerli və xarici şirkətləri bir araya gətirərək, geniş çeşidli, yüksək keyfiyyətli məhsullarla tanış olmaq üçün müstəsna bir imkan yaradacaq.<br>Sərgidə Azərbaycan, Almaniya, Rusiya, Ukrayna, Yaponiya və digər ölkələri təmsil edən şirkətlər:<br>- promo məhsullar<br>- VIP, korporativ, xüsusi sifarişlə hazırlanan hədiyyələr<br>- biznes suvenirlər<br>- hədiyyə qutuları<br>- dəri məhsulları: qovluqlar, çantalar, pul kisələri və s.<br>- zərgərlik məmulatları<br>- tekstil: hər növ bayraq istehsalı, gödəkcələr, şərflər, şapkalar və s. təqdim edəcəklər.<br>Sizi sözügedən sərgidə iştiraka dəvət edirik.<br>Tədbirdə iştirak edəcəyiniz təqdirdə, göstərilən keçidə Gift&Promo Fair 2018 daxil olaraq qeydiyyatdan keçə bilərsiniz. |
| **Silah və hərbi texnika sərgisi**<br>**Tarix**<br>25-27 sentyabr 2018<br>**Keçirildiyi yer**<br>Bakı Expo Mərkəzi<br>**Əlaqə üçün**<br>Əlaqələndirici şəxs:<br>Nurlana Həsənova<br>nhasanova@ask.org.az<br>(+994 12) 465 7242 (daxili 112) | 3-cü Azərbaycan Beynəlxalq Müdafiə "ADEX 2018" sərgisi regionda ən böyük silah və hərbi texnika ekspozisiyalarından biridir.<br><br>Bu tədbir müasir silah və avadanlıqların nümayişidir. Sərginin təşəbbüskarı Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyi və Azərbaycan Respublikası Müdafiə Nazirliyidir.<br><br>Sərgidə Azərbaycan, Almaniya, ABŞ, Belarus, Belçika, Bolqarıstan, Böyük Britaniya, Çexiya, Çin, Estoniya, Fransa, Hindistan, İspaniya, İsrail, İtaliya, Nederland, Qazaxstan, Kipr, Litva, Pakistan, Rusiya, Serbiya, Sinqapur, Türkiyə və Ukrayna kimi ölkələrini təmsil edən 210 şirkət və 10 milli qrup Bakı Expo Mərkəzinin üç pavilyonunu və xarici meydançasını əhatə edəcəkdir. |
| **Turizm sərgisi**<br>**Tarix**<br>3-5 oktyabr 2018 | Hörmətli sahibkarlar,<br><br>Sizi **24-cü Daşkənd Beynəlxalq Turizm** |

| | |
|---|---|
| **Keçirildiyi yer**<br>Daşkend, Özbəkistan<br>**Əlaqə üçün**<br>+99895-1932101/02/04<br>info@nationalprcentre.com<br>ria-uz@yandex.ru | **yarmarkasında** iştirak etməyə dəvət edirik.<br><br>“İpək Yolunda Turizm” mövzusunda keçiriləcək sərgi Beynəlxalq Turizm Təşkilatının rəsmi dəstəyi ilə təşkil olunacaq. Sərginin əsas məqsədi Özbəkistanın və dünya ölkələrinin turizm imkanlarını təbliğ etmək, turizm şirkətləri arasında əlaqələri genişləndirməkdir. |
| **Kənd təsərrüfatı sərgisi**<br>**Tarix**<br>3-5 oktyabr 2018<br>**Keçirildiyi yer**<br>Kabil, Əfqanıstan<br>**Əlaqə üçün**<br>+93744371757<br><br>agfair@mail.gov.af<br><br>privatesector.development@mail.gov.af | Hörmətli sahibkarlar,<br><br>Sizi **Kabil Beynəlxalq Kənd Təsərrüfatı sərgisində** iştirak etməyə dəvət edirik.<br><br>Sərgidə Əfqanıstanın kənd təsərrüfatının inkişaf imkanları ilə tanış olmaq, iştirakçılarla biznes əməkdaşlıq əlaqələri qurmaq və öz məhsullarını ölkənin böyüməkdə olan bazarına çıxarmaq istəyən iş adamları üçün gözəl imkan yaranacaq.<br><br>Tədbirdə iştirak etmək istəyənlər əlavə məlumat üçün qeyd olunan əlaqə vasitələrindən istifadə edə bilərlər. |
| **Avadanlıq təchizatçıları sərgisi**<br>**Tarix**<br>8 oktyabr 2018<br>**Keçirildiyi yer**<br>Radisson Blu Iveria Hotel, Tbilisi, Gürcüstan<br>**Əlaqə üçün**<br>Tamar Iluridze<br>Tel: +995 598 186 444<br>Tel: +995 032 2195555 (4011) | **“Avadanlıq Təchizatçıları Sərgisi və Lizinq üzrə Maliyyə Forumu”** Gürcüstan Lizinq Assosiasiyası tərəfindən təşkil olunacaq.<br><br>Forum kənd təsərrüfatı, tibb, nəqliyyat, otel, restoran avadanlıqlarının istehsalçı və təchizatçılarını bir araya gətirəcək.<br><br>Forumda yerli sahibkarlara texnoloji inkişaf üçün lizinq imkanları təklif olunacaq və xarici təchizatçılar yeni bazarın araşdırılması üçün imkan əldə edəcəklər. Günün ikinci yarısında potensial müştəri və lizinq mütəxəssisləri ilə B2B görüşlər keçiriləcək.<br><br>Əlavə məlumatı aşağıdakı saytlardan əldə edə bilərsiniz: www.biaforum.ge; www.bia.ge |
| **Əl işləri hədiyyələri sərgisi**<br>**Tarix**<br>14 – 18 oktyabr 2018<br>**Keçirildiyi yer**<br>Böyük Noida, Hindistan | Hindistanın Böyük Noida şəhərində yerləşən Ekspo Mərkəzində **“46-cı Əl İşləri Hədiyyələri”** sərgisi (HƏHS) keçiriləcəkdir. Sərginin təşkilatçısı Hindistan Əl İşlərinin İxracının Təşviqi Şurasıdır.<br><br>Beş gün davam edəcək sərgidə 3000-dən çox aparıcı |

| | |
|---|---|
| **Əlaqə üçün**<br>EPCH House, Pocket 6&7, Sector 'C', LSC, Vasant Kunj, New Delhi-110070<br><br>Tel: +91-11+26135256<br>Fax:+91-11-2613551819<br>visitors@epch.com | istehsalçı, Hindistanın bütün regionlarından olan ixracatçıları tərəfindən müxtəlif metallar, ağac, mərmər,daş, tekstil, hər növ xammalların fərqli çeşiddə ənənəvi və müasir əl işləri nümunələri nümayiş olunacaqdır. “HƏHS Payız 2018 Dehli” sərgisi idxalçılar, topdan və pərakəndə satıcılar, distribyutorlar, dizaynerlər, potensial françayzinqlər və kuryer şirkətləri üçün biznes əlaqələrin yaradılmasında fərqli bir platforma olaraq Hindistanın əl işləri istehsalçılarının toplaşdığı məkandan bənzərsiz çeşiddə əl işləri və hədiyyələr əldə etmək üçün imkan yaradır.<br><br>Tədbirdə iştirak qaydaları ilə tanış olmaq üçün və həmçinin tədbir haqqında ətraflı məlumat almaq üçün keçiddən istifadə edə bilərsiniz: |
| İdxal-ixrac sərgisi<br>**Tarix**<br>15 oktyabr- 4 noyabr 2018<br>**Keçirildiyi yer**<br>Quançjou,Çin<br>**Əlaqə üçün**<br>Tel: 0086-20 28888999<br>Fax:0086-20 28395166<br>www.cantonfair.org.cn<br>www.cftc.org.cn<br>info@cantonfair.org.cn | 1957-ci ildən başlayaraq ildə iki dəfə keçirilən **Quançjou idxal-ixrac sərgisi** böyüklüyünə, malların çeşidinə və iştirakçıların sayına görə Çinin ən böyük sərgisi hesab olunur.<br>Sizi 124-cü Quançjou sərgisində iştirak etməyə dəvət edirik. |
| **Mebel sərgisi**<br>**Tarix**<br>6-11 noyabr 2018<br>**Keçirildiyi yer**<br>İstanbul, Türkiyə | 6 qitə, 140 ölkə, 100 000 alıcı İstanbulda görüşəcək!<br><br>**İstanbul Mebel Sərgisi** beynəlxalq arenada türk mebel sənayesinin rəqabət qabiliyyətini və ixracat həcmini artırmaqla yanaşı yeni bazarlara çıxış |

| | |
|---|---|
| Ətraflı məlumatı [www.furnitureistanbul.com.tr](http://www.furnitureistanbul.com.tr) saytından əldə etmək olar. | imkanı yaratmaq məqsədilə təşkil olunur. Sərgi ixracat həcmini artırmaq və aparıcı mebel brendləri ilə yeni biznes əlaqələri yaratmaqla bərabər mebel istehsalçılarına brendə çevrilmək imkanları üçün əla fürsət təklif edir. Aparıcı brendlər arasında yer alın!<br><br>İstanbul Mebel Sərgisində iştirak edən mebel istehsalçıları Türkiyədə aparıcı brendlər arasında yer alacaq və beynəlxalq bazarda bizneslə məşğul olmaq imkanları qazanacaq. Sərgi iştirakçıları öz brend və məhsullarının beynəlxalq təşviqini aparmaq habelə 15 il mebel sərgilərini təşkil etməktə təcrübəsi olan CNR Holdinqin yerli və xarici alıcılar barədə məlumat bazasından yaralanmaq imkanı əldə edəcəklər. |
| **Yol inşaat sərgisi**<br>**Tarix**<br>07-09 noyabr 2018<br>**Keçirildiyi yer**<br>Kiyev,Ukrayna | Sizi Ukraynada avtomobil yollarının və körpülərin layihələndirilməsi, tikilməsi və istismarı ilə bağlı ən böyük və yeganə sərgi olan - 16-cı Beynəlxalq Ticarət Sərgisində iştirak etməyə dəvət edirik. “AvtodorExpo” sərgisi sektor liderlərini bir araya gətirəcək. Bundan əvvəlki sərgidə İspaniya, Rusiya, Belarus, Almaniya, Fransa, İtaliya, Polşa, Türkiyə, Çexiya Respublikası, Çin və Pakistan kimi ölkələrdən 156 iştirakcı qatılıb. Sərgi peşəkarlar üçün əməkdaşlıq və ədalətli iş münasibətlərini inkişaf etdirmək imkanları yaradacaq. Əlavə məlumatı [www.avtodorexpo.ua](http://www.avtodorexpo.ua) saytından əldə etmək olar. |
| **Neft və qaz sərgisi**<br>**Tarix**<br>11-17 noyabr, 2018<br>**Keçirildiyi yer**<br>Əbu-Dabi, BƏƏ | **ADIPEC - Əbu-Dabi Beynəlxalq Sərgi-Konfransı** neft və qaz sənayəsində dünyanın ən vacib tədbirlərindəndir. Ötən il sərginin 4 günü ərzində 10.4 milyard dollar dəyərində biznes müqavilələr bağlanılıb. 2018-ci ildə bu rəqəmin artacağı gözlənilir. İştirakçıların 82%-i qərar qəbul edən şəxslər,alıcılar və təsir edici şəxslər təşkil edir ki, bu da tədbirin biznes üçün real imkanlar yaratması deməkdir. ADIPEC dünyanın əhəmiyyətli neft və qaz sərgilərindən biridir. Sərgidə dünyanın 100-dən çox ölkəsindən insanlar iştiirak edir. Dörd gün ərzində 20 milli neft şirkəti, 18 transmilli neft şirkəti biznes və yeni əməkdaşlıq imkanlarını müzakirə edəcəklər. Sərgidə 30 ölkənin pavilyonu quraşdırılacaq və 2200-dən artıq şirkət təmsil olunacaq. Ətraflı məlumatı [www.adipec.com](http://www.adipec.com) saytından əldə etmək olar. |

| | |
|---|---|
| **Əmlak sərgisi**<br>**Tarix**<br>22-24 noyabr 2018<br>**Keçirildiyi yer**<br>Bakı Ekspo Mərkəzi<br>**Əlaqə üçün**<br>Nurlana Həsənova<br>nhasanova@ask.org.az<br><br>465 72 43 (112) | Əmlak Məsələləri Dövlət Komitəsi, Türkiyənin “ElanExpo” şirkətinin birgə təşkilatçılığı ilə **Azərbaycanın Beynəlxalq Daşınmaz Əmlak və İnvestisiya Sərgisi- “RecExpo” -** keçiriləcək.<br><br>Əlavə məlumatı keçiddən əldə edə bilərsiniz. |
| **TƏLİM** | |
| **Tarix**<br>24 – 25 sentyabr, 12-13 noyabr, 2018<br>**Keçirildiyi yer**<br>Bakı, Marriot oteli<br>**Əlaqə üçün**<br>Emin Quluzadə<br>guluzade@ebrd.com<br><br>Tel: (012) 497 10 14 / 15 / 17 / 18 | Kiçik və orta sahibkarlığın inkişafına dəstək proqramı çərçivəsində Avropa Yenidənqurma və İnkişaf Bankı «Change Management» mövzusunda təlim təşkil edir.<br><br>Kursun məqsədləri:<br><br>• Müştəri şirkətində dəyişikliyin idarə edilməsində yanaşmalar və metodlar haqqında<br>• Konsaltinq layihəsi çərçivəsində müştəri şirkətində dəyişikliklərin tətbiqində idarə olunma texnologiyalarının formalaşması bacarıqları<br>Kursun müddəti:<br>• 4 gün (modullar arası 6 həftə fasilə ilə)<br>Kursun əsas mövzuları:<br>• Təşkilatda planlaşdırılmış dəyişikliklərin müasir modelləri<br>• Təşkilatda dəyişikliklərə səbəb olan daxili və xarici amillər<br>• Dəyişikliklər üzrə məsləhət layihələrin modelləri və s.<br>Seminar Vladimir Çernyavskiy tərəfindən aparılacaq.<br>Seminarda iştirak edən şəxslər linkdəki faylı yüklədikdən sonra doldurub guluzade@ebrd.com |
| **Tarix**<br>21 və 28 sentyabr 2018<br>**Keçirildiyi yer**<br>Lənkaran və Zaqatala<br>**Əlaqə üçün** | İqtisadi Resursların Öyrənilməsi İctimai Birliyi Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə “Regionlarda sahibkarların biznes imkanlarının genişləndirilməsi üçün tədbirlərin təşkili” layihəsini icra edir. |

| | |
|---|---|
| Nurlana Həsənova<br>Tel: (012) 465 72 42 (daxili: 112)<br><br>nhasanova@ask.org.az | Layihənin həyata keçirilməsində başlıca məqsəd sahibkarlar arasında birgə biznes modelini aşılamaq yolu ilə onlarda müstəqil şəkildə sərmayəçilərlə birbaşa əməkdaşlıq etmək qabiliyyətinin formalaşdırılmasına nail olmaqdır.<br><br>Layihə çərçivəsində 21 sentyabr Lənkəran, 28 sentyabr 2018-ci il tarixlərində isə Zaqatalada fəaliyyət göstərən sahibkarlar üçün təlim keçiriləcək. Təlimlərdə birgə biznes modelinin mahiyyəti, üstünlükləri, formaları, qanunvericilikdə əsası, uçotu, hesabatının təşkili istiqamətlərində mühazirələr təşkil olunacaq.<br><br>Sizi həmin təlimlərdə iştirak etməyə dəvət edirik. |

Əlavə məlumat üçün Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasına müraciət edə bilərsiniz.

**Azərbaycan, Bakı, Akad. Həsən Əliyev küç. 57; tel:(+994 12) 465 72 42**
**office@ask.org.az  www.ask.org.az**